

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 185 (23.096)

*29 sentyabr 2018-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Sentyabrın 28-də Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə görüşü olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə iştirak edib.

* * *

Həmin gün Düşənbədə MDB Dövlət Başçıları Şurasının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə iclası olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 28 sentyabr tarixli Sərəncamı ilə Azərbaycan Prokurorluğunun yaranmasının 100 illik yubileyi münasibətilə və Azərbaycan Respublikasında qanunçuluğun təmin edilməsində, ağır və xüsusilə ağır cinayətlərin istintaqının aparılmasında, korrupsiyaya qarşı mübarizədə, məhkəmədə dövlət ittihamının müdafiə olunmasında yüksək peşəkarlıq göstərdiklərinə, xidməti vəzifələrinin yerinə yetirilməsində fərqləndiklərinə görə Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşları təltif edilmişlər. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları da vardır.

**Şahverdiyev Səbuhi Zəhmət oğlu**

3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə,

**Həsənov Yaşar Əli oğlu**
**Talıbov Məhərrəm Yusif oğlu**

"Tərəqqi" medalı ilə,

**Ağayev Elşad Cəlil oğlu**
**Əsgərov Əsrafil Cəfər oğlu**
**İbrahimov Salman Müzəffər oğlu**
**Vəliyev Teymur İbrahim oğlu**

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişlər.

## Veteranlar Şurasının yığıncağı olub



***Dünən Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi veteranlarının ümumi yığıncağı keçirilib.***

Yığıncağı daxili işlər naziri, general-leytenant Fazil Ələkbərov açaraq muxtar respublika daxili işlər orqanlarının polis veteranları ilə aparılan işin vəziyyəti və qarşıda duran vəzifələr barədə danışıb. Qeyd olunub ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan veteranlara qayğı siyasəti bu gün Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Məqsəd ondan ibarətdir ki, belə vətənpərvər insanların xidmətləri qiymətləndirilsin, onların cəmiyyətdəki mövqeyi, sosial müdafiəsi gücləndirilsin, yeni nəslin öz Vətəninə, xalqına, dövlətinə sədaqətli, yüksək biliklərə, geniş dünyagörüşə malik insanlar kimi yetişməsində veteranların qüvvəsindən istifadə olunsun.

Nazir vurğulayıb ki, polis veteranları ilə işin təşkili istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi və onların fəaliyyətlərinin hüquqi-təşkilati əsaslarının müəyyən edilməsi məqsədilə "Veteranlar Şurasının Əsasnaməsi" hazırlanıb və əsas istiqamətlər müəyyənləşdirilib. Veteranlarla bu gün keçirilən ilk ümumi yığıncaqda isə nazirlik aparatının Veteranlar Şurasının tərkibi, şuranın sədri seçiləcək, qarşıda duran məsələlər müəyyənləşdiriləcəkdir.

Veteranlar Şurasının fəaliyyəti haqqında nazirliyin Katibliyinin rəisi, polis polkovniki Yusif Həsənov məlumat verib. Bildirib ki, Veteranlar Şurası şəxsi heyətə vətənpərvərlik, dövlətçiliyə, anda, xidməti vəzifə borcuna sədaqət ruhunun aşılanması, əməkdaşların peşəkarlığının artırılması, cinayətlərin üstünün açılması istiqamətində onların təcrübəsindən istifadə olunması, veteranların hüquqlarının qorunması və sosial müdafiəsi məqsədilə nazirlikdə və ərazi polis orqanlarında yaradılan ictimai qurumdur. Şuranın üzvlüyünə daxili işlər orqanlarında xidmət müddəti ən azı 25 il olan, nüfuzlu və fəal veteranlar seçilirlər.

Vurğulanıb ki, şura veteranların ümumi yığıncağında açıq səsvermə və sadə səs çoxluğu ilə 5-7 nəfərdən ibarət tərkibdə 3 il müddətinə seçilir.

Şuraya sədr rəhbərlik edir, fəaliyyəti illik iş planı əsasında qurulur. İllik iş planı sədr tərəfindən tərtib edilir, şuranın iclasında müzakirə olunduqdan sonra daxili işlər naziri, ərazi polis orqanlarında isə orqan rəisi tərəfindən təsdiq olunur.

Sonra təqaüddə olan polis veteranları Elxan Həsənovun, Vaqif Rzayevin, Mübariz Quliyevin, Firudin Əliyevin çıxışları olub.

Veteranlar Şurasının tərkibinin və sədrinin seçilməsi barədə nazirliyin Kadrlar şöbəsinin rəisi, polis polkovnik-leytenantı Rəşad Seyidov təkliflərini bildirib. Şuranın tərkibinə 7 polis veteranının namizədliyi irəli sürülüb. Namizədlər səsə qoyularaq şuraya üzv seçiliblər. Polis polkovniki Yusif Həsənov yekdilliklə şuranın sədri seçilib.

Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Firudin Süleymanov yeni seçilmiş şura üzvlərini və sədri təbrik edib, gələcək fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Yusif Həsənov ona göstərilən etimad üçün minnətdarlığını bildirib və əmin edib ki, şuranın qarşısına qoyulan vəzifələrin yerinə yetirilməsində fəallıq göstərəcək, muxtar respublikada bərqərar olunmuş əmin-amanlığın və asayişin qorunmasında polis veteranlarının köməyindən istifadə edəcəklər.

Yığıncaqda daxili işlər naziri polis veteranlarını yenidən təşkilatlanmaq münasibətilə təbrik edib, Veteranlar Şurası ilə aparılacaq işin və fəaliyyətin əsas istiqamətləri üzrə tövsiyələrini verib.

Bildirilib ki, uzun illər nazirliyin fəaliyyətində, ictimai asayişin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, gənc əməkdaşların vətənpərvər ruhda formalaşmasında, onlara dövlətə və dövlətçiliyə sədaqət hissinin aşılanmasında, gənclərin zərərli vərdişlərə, radikal dini cərəyanlara qoşulmasının qarşısının alınmasında böyük rolu olan polis veteranları ilə iş tamamilə unudulmuşdu. Şura üzvləri vasitəsilə muxtar respublikada yaşayan bütün veteranların qayğıları və çətinlikləri təhlil olunacaqdır.

Fazil Ələkbərov bildirib ki, törədilmiş cinayətlərin açılmasında, daxili işlər orqanlarında gənc əməkdaşlarla hamilik işinin təşkilində veteranların təcrübəsindən və imkanlarından istifadə ediləcəkdir. Xidmətdə olan hər bir əməkdaş da, öz növbəsində, veteranlarımızı doğma qəbul edib onların hərtərəfli qayğı ilə təmin olunmalarını diqqət mərkəzində saxlamalıdır.

Nazir diqqətə çatdırıb ki, bu gün yaradılan şura fəaliyyətini daxili işlər orqanları ilə sıx əlaqədə qurmalı, muxtar respublikada ən aktiv ictimai təşkilat kimi formalaşmalıdır. Bunun üçün Veteranlar Şurası tərəfindən işlək planlar tərtib olunmalı, şuranın ümumi fəaliyyətində aktiv iş metodu tətbiq edilməli, mütəmadi olaraq aktual mövzularla kütləvi informasiya vasitələrində çıxışlar olunmalı, gənc əməkdaşlarla hamilik işinin təşkilində nazirliyin Kadrlar şöbəsi ilə veteranların birgə fəaliyyəti diqqətdə saxlanılmalı, ictimai asayişin və təhlükəsizliyin təmin edilməsində, o cümlədən cinayətkarlığa qarşı mübarizədə veteranların gücündən istifadə olunmalı, peşəkarlığı ilə fərqlənən veteranlar qanunvericiliklə müəyyən olunmuş qaydada əməliyyat-axtarış tədbirlərinin icrasına cəlb edilməlidirlər.

Nazir Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Veteranlar Şurasının yenidən təşkilatlanması münasibətilə polis veteranlarına cansağlığı, gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

✍ **Muxtar MƏMMƏDOV**

*Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı Qarabağlar Kənd Mərkəzində "Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan və Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilən inkişaf və quruculuq xətti" mövzusunda tədbir keçirib.*

## İnkişaf və quruculuq xətti uğurla davam etdirilir



Tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyeva çıxış edərək bildirib ki, ümummilli liderimiz Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə iqtisadiyyatın inkişafını diqqət mərkəzində saxlayıb. Təsadüfi deyil ki, hələ sovetlər dönəmində ulu öndərimizin yaratdığı iqtisadi potensial respublikamız müstəqillik əldə etdikdən sonra ölkənin gələcək inkişafında müstəsna rol oynadı.

Təşkilat sədri diqqətə çatdırıb ki, 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin siyasətinin başlıca prinsiplərindən biri böhran vəziyyətində olan iqtisadiyyatın dirçəldilməsi, bu məqsədlə ölkəyə xarici sərmayələrin cəlbi oldu. Bu siyasətin reallaşmasının mühüm və əsas istiqamətlərindən biri – Azərbaycanda yeni neft strategiyasının əsasını qoyan "Əsrin müqaviləsi"nin imzalanması iqtisadiyyatımızın dirçəldilməsində böyük bir mərhələnin başlanğıcını qoydu.

Vurğulanıb ki, bu gün dahi şəxsiyyətin müəyyənləşdirdiyi siyasi yol ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Bu siyasi kursun daha da zənginləşdirilməsi nəticəsində Azərbaycan bütün sahələrdə yüksək sürətlə inkişaf edir, dünya dövlətləri arasında öz yerini daha da möhkəmləndirir. Dövlət başçısının təşəbbüsü və rəhbərliyi ilə reallaşan iri yerli və regional layihələr hesabına Azərbaycan dövləti öz iqtisadi göstəriciləri ilə dünyanın aparıcı dövlətləri sırasındadır.

Sevda Quliyeva bildirib ki, ulu öndərimizin müəyyənləşdirdiyi quruculuq və inkişaf xətti bu gün ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Bu gün özünün yüksək inkişaf dövrünü yaşayan muxtar respublikamızda ucqar dağ kəndlərinə belə göstərilən hərtərəfli qayğı bütün sahələrin, xüsusilə sosialyönümlü sahələrin yeniləşmə və müasirləşməsinə səbəb olub. Bu mənada, Kəngərli rayonunda da son 14 ildə əldə olunan nailiyyətlər, həyata keçirilən abadlıq-quruculuq işləri, iqtisadi dirçəliş, müxtəlif sənaye və kənd təsərrüfatı sahələrinin yaradılması, təhsil və infrastruktur quruculuğu seçilən düzgün yolun nəticəsi kimi dəyərləndirilir.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

Tədbir iştirakçıları Qarabağlar Türbə Kompleksini ziyarət ediblər.

## Tələbələr pedaqoji təcrübə keçəcəklər



*Naxçıvan Müəllimlər İnstitutunda 2018-2019-cu tədris ilinin birinci yarısında əyani şöbəsində təhsil alan IV kurs tələbələrinin ikinci pedaqoji təcrübəsinə həsr olunmuş başlanğıc konfransı keçirilib.*

Təhsildə sosial-psixoloji xidmət və Təsviri incəsənət müəllimliyi ixtisasları tələbələrinin iştirak etdiyi tədbirdə ali təhsil ocağının rektoru Elbrus İsayev bildirib ki, institutun 48 tələbəsi Naxçıvan şəhərindəki 8, 10, 11 və 14 nömrəli tam orta məktəblərə 8 həftəlik pedaqoji təcrübəyə göndərilir.

Konfransda iştirak edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov qeyd edib ki, 2017-2018-ci tədris ilinin birinci yarımilində Naxçıvan Dövlət Universitetindən 678, "Naxçıvan" Universitetindən 112 və Naxçıvan Müəllimlər İnstitutundan 149 olmaqla, ümumilikdə, 939 nəfər III və IV kurs tələbəsi ümumtəhsil məktəblərində pedaqoji təcrübə keçib. Naxçıvan şəhər ümumtəhsil məktəbləri ilə yanaşı, Babək rayonunun Şıxmahmud və Kərimbəyli kənd tam orta məktəblərində də tələbələrin pedaqoji təcrübə keçmələri təmin olunub.

Vurğulanıb ki, təcrübə müddətində tələbələrə pedaqoji proseslə bağlı zəruri yeniliklər çatdırılacaq .

Tədbirdə pedaqoji təcrübənin təşkili və keçirilməsi, təcrübə zamanı pedaqoqun və psixoloqun vəzifələri barədə iştirakçılara məlumat verilib.

**Xəbərlər şöbəsi**

*1 oktyabr Prokurorluq İşçilərinin Peşə Bayramı Günüdür*

# Prokurorluq orqanlarına hərtərəfli qayğı göstərilir



*Ümummilli lider Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli Sərəncamına əsasən hər il oktyabr ayının 1-i "Prokurorluq İşçilərinin Peşə Bayramı Günü" kimi qeyd olunur.*

Azərbaycanda prokurorluq orqanlarının formalaşması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1993-cü ildə Azərbaycanda ali hakimiyyətə qayıdışından sonra respublikamızda qanunun aliliyi təmin olunmuş, vətəndaşların hüquq və azadlıqlarının yüksək səviyyədə müdafiəsi mühüm prinsip kimi elan edilmişdir. Bu tədbirlərin tərkib hissəsi kimi 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm zəmin yaratmışdır.

Bu dövrdən başlayaraq ulu öndər Heydər Əliyevin hüquqi dövlət quruculuğu konsepsiyasına uyğun olaraq prokurorluq orqanlarında köklü islahatlara başlanılmışdır. ***"Respublikamızda prokurorluq müstəqil Azərbaycanın dövlət quruluşu sistemində öz layiqli yerini tutubdur və ölkəmizin müstəqilliyinə layiq xidmət edir"***, – deyən ulu öndərin rəhbərliyi ilə prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur.

Qarşıda duran bu və digər məqsədlərin həyata keçirilməsi baxımından 1999-cu il 7 dekabr tarixdə qəbul olunmuş "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanunu müstəsna əhəmiyyət daşıyır. Bu qanun prokurorluğun fəaliyyətinin forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılması baxımından hüquqi zəmin formalaşdırmışdır. "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında" Azərbaycan Respublikası Qanununun, "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin və digər normativ-hüquqi aktların təsdiq edilməsi isə prokurorluq orqanlarının fəaliyyətində hüquqi tənzimlənmə prosesini yeni mərhələyə yüksəltmişdir.

Ölkəmizdə bu gün həyata keçirilən ardıcıl məhkəmə-hüquq islahatları hüquq sisteminin demokratik standartlara cavab verən səviyyədə formalaşmasına, insan hüquq və azadlıqlarının daha mötəbər formada qorunmasına, o cümlədən prokurorluq orqanlarının tam yeniləşərək müasir məzmunlu sivil bir orqana çevrilməsinə zəmin yaratmışdır. Ulu öndərimizin siyasi kursunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarının fəaliyyətinin daha da müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir. Dövlət başçısı prokurorluq orqanlarının inkişafının həm də peşəkar prokurorluq əməkdaşlarının hazırlanmasından asılı olduğunu bildirərək demişdir: ***"Hazırda prokurorluq orqanlarının qarşısında mühüm vəzifələr durur. Əsas məqsədimiz prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılmasıdır"***.

Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları da həmişə öz üzərində yüksək dövlət qayğısını hiss etmiş, ötən dövrdə muxtar respublika prokurorluğunun, eləcə də rayon, şəhər prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmış, 2006-cı ildə Şahbuz və Culfa rayon prokurorluqları üçün müasir standartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Muxtar respublikanın sosial-iqtisadi və demokratik inkişafına uyğun olaraq hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuş, Ordubad, Kəngərli və Sədərək rayon prokurorluqları üçün yeni inzibati binalar tikilmiş, Şərur Rayon Prokurorluğunun inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Prokurorluğu mərkəzi aparatının inzibati binası əsaslı yenidənqurmadan sonra müasir texniki vasitə və kriminalistik avadanlıqlarla təmin edilərək istifadəyə verilmişdir. Prokurorluq orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində Naxçıvan şəhər və Babək rayon prokurorluqları üçün də yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tövsiyə və tapşırıqlarına uyğun olaraq cinayət hadisələrinin qarşısının alınması üçün profilaktik tədbirlərin həyata keçirilməsinin nəticəsidir ki, muxtar respublika cinayətkarlığın səviyyəsi baxımından ən stabil regiona çevrilmiş, cinayət hadisələrinin sayı dəfələrlə azalmışdır. Ali Məclisin Sədri cənab Vasif Talıbov demişdir: ***"Davamlı iqtisadi inkişaf, yeni iş yerlərinin açılması, gənclərin səmərəli məşğulluğunun təmin edilməsi muxtar respublikada cinayətkarlığın aşağı səviyyədə olmasını təmin etmişdir. Hüquq-mühafizə orqanları yaradılan şəraitdən istifadə edərək maarifləndirmə-profilaktika tədbirlərini düzgün təşkil etməli, nizam-intizamı daim möhkəmləndirməli, ictimai-asayişin qorunması üçün səylə çalışmalıdırlar"***. Bu gün muxtar respublikanın prokurorluq orqanları profilaktik tədbirlərin təsirliliyinin artırılmasını diqqət mərkəzində saxlayırlar. Çünki demokratik dövlət quruculuğunda insanların hərtərəfli hüquqi düşüncəyə və hüquq mədəniyyətinə malik olmaları əsas şərtlərdəndir. Hüquq maarifinin yüksək səviyyədə olmasını muxtar respublika prokurorluğunun əməkdaşları özləri üçün əsas vəzifə hesab edərək bu istiqamətdə işlərini günün tələbləri səviyyəsində qurmağa çalışırlar.

Prokurorluq orqanlarına işə qəbulun müsabiqə qaydasında keçirilməsi prokurorluğun kadr tərkibinin savadlı hüquqşünaslar hesabına komplektləşdirilməsi üçün ciddi zəmin yaratmışdır. Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqələrin keçirilməsi qaydalarına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Prokurorluğunda aşkarlıq və şəffaflıq şəraitində test imtahanları keçirilmiş və nəticədə, gənc hüquqşünaslar prokurorluq orqanlarına işə qəbul olunmuşlar. Həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində görülən tədbirlər nəticəsində prokurorluq orqanları struktur və mahiyyət baxımından yenidən qurularaq onun mütərəqqi normativ-hüquqi baza əsasında fəaliyyət göstərən çevik və işlək dövlət təsisatı kimi formalaşmasına nail olunmuşdur.

*Bu gün 100 illik yubileyini qeyd edən prokurorluq orqanlarının əməkdaşları bundan sonra da qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı müdafiəsində səylə çalışacaqlar.*

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

*Sentyabrın 28-də Şərur Rayon Mərkəzi Xəstəxanasında Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin kollegiya iclası keçirilib.*

# Səyyar kollegiya iclası keçirilib

Səhiyyə naziri Niyazi Novruzov tədbirdə çıxış edərək bildirib ki, insan amili, onun layiq olduğu səviyyədə yaşamasının təmin edilməsi ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatların mühüm tərkib hissələrindən biridir. Ulu öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulan bu alternativsiz inkişaf yolu ölkəmizin hər bir bölgəsində səhiyyə ocaqları üçün yeni binaların tikilərək istifadəyə verilməsində və müasir səhiyyə avadanlıqları ilə təmin edilməsində, həkimlərin peşə hazırlığının diqqət mərkəzində saxlanılmasında mühüm əhəmiyyət kəsb edir.

Muxtar respublika rəhbərinin diqqət və qayğısı nəticəsində bu gün səhiyyə müəssisələrimizdə dünyanın qabaqcıl şirkətlərinin istehsalı olan müasir tibbi avadanlıqlarla, yeni texnologiyalarla müayinə və müalicə işləri aparılır. Şərur Rayon Mərkəzi Xəstəxanası da belə səhiyyə müəssisələrindən biridir. Burada müasir tibbi avadanlıq və cihazlarla müayinə, müalicə işləri aparılır, humanitar tibbi aksiyaların keçirilməsi ənənə halını alıb. Aztəminatlı ailələrdən olan xəstələrin muxtar respublikadan kənara getmədən mürəkkəb cərrahi əməliyyatlarının təşkili onlara həm maddi, həm də mənəvi dəstəkdir. Rayonda sağlamlığa mənfi təsir edən faktorların aradan qaldırılması əhalinin hər bir təbəqəsinin sağlamlığının qorunması işində əsaslı dönüş yaradır.

Kollegiya iclasında çıxış edən nazirliyin Tibbi yardımın təşkili şöbəsinin müdiri Süleyman Cəfərov Şərur rayonunda əhaliyə göstərilən səhiyyə xidmətinin vəziyyəti, Naxçıvan Şəhər Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Zeynəb Mənsumova isə Sədərək, Şərur və Kəngərli Rayon Gigiyena və Epidemiologiya mərkəzləri tərəfindən tibbi xidmətin təşkili barədə məlumat veriblər.

Müzakirə olunan məsələlərlə əlaqədar müvafiq qərarlar qəbul edilib.

Sonra kollegiya iştirakçıları Şərur Rayon Mərkəzi Xəstəxanasının maddi-texniki bazası ilə tanış olublar.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# İstilik sistemi olmayan müəssisələrə mal-materiallar paylanılıb

2018-ci il avqustun 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində muxtar respublikada 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin qarşısında da bir sıra tapşırıqlar qoyulub. Belə ki, nazirliyə muxtar respublikada istilik sistemi olmayan müəssisələrə payız-qış mövsümündə tələb olunan mal-materialın alınması üçün lazımi maliyyə vəsaitinin ayrılmasını təmin etmək, həmçinin dövlət müəssisələrində enerji daşıyıcılarından istifadə zamanı borc qalığının yaranmamasını nəzarətdə saxlamaq tapşırılıb.



Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müşavirədə verilmiş tapşırıqların icrasının təmin edilməsi məqsədilə 2018-ci il 8 avqust tarixli Sərəncamına əsasən Təhsil, Səhiyyə və Mədəniyyət nazirliklərinin Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifləri nəzərə alınaraq "Naxçıvan Muxtar Respublikasının istilik sistemi olmayan müəssisələrində 2018-2019-cu illərin payız-qış mövsümü üçün tələb olunan yanacağın, mal-materialların bölgüsü" təsdiq edilib. Müşavirədə qarşıya qoyulmuş tapşırıqların icrası ilə əlaqədar müəyyənləşdirilmiş bölgüyə uyğun olaraq Maliyyə Nazirliyi tərəfindən mal-materialların alınması üçün lazımi vəsait ayrılması təmin edilib.

Sentyabrın 28-də Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi tərəfindən yuxarıda adları çəkilən nazirliklərin istilik sistemi olmayan müəssisələrinə ayrılmış mal-materiallar paylanılıb.

**Səbuhi HƏSƏNOV**

# "Naxçıvan məhsulları" satış mağazası fəaliyyətə başlayıb

*Muxtar respublikamızda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi müxtəlif növ və çeşiddə yerli məhsulların istehsalı üçün əlverişli şərait yaradıb. İstehsal məkanı Naxçıvan olan hər bir məhsulun keyfiyyətinə hər yerdə yüz faiz təminat verildiyi bir dövrdə belə məhsulların brendləşdirilərək satışa çıxarılması və ixrac olunması artıq günün tələbinə çevrilib.*






"Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində muxtar respublikanın paytaxtında yeni fəaliyyətə başlamış "Naxçıvan məhsulları" satış mağazası bu istiqamətdə işlərin daha da genişləndirilməsi məqsədi daşıyır. Şübhəsiz, yerli əhali ilə bərabər Naxçıvana gələn turistlərin də daha çox üz tuta biləcəkləri belə bir məkanda yerli məhsulların satışı mağazasının yaradılması ideyası məhsulların reklam və təşviqi, istehsalçıların fəaliyyətinin stimullaşdırılması baxımından uğurlu addımdır.

Naxçıvan şəhərinin Heydər Əliyev prospekti 21 ünvanında yerləşən "Naxçıvan məhsulları" satış mağazası insanların daha çox axın etdiyi, alış-verişin qaynar olduğu yerdir. 50 kvadratmetrdən çox ərazisi olan bu mağazada satılan yerli məhsullara tələbat böyükdür. Bunu mağazanın fəaliyyətə başladığı iki gün ərzində alıcıların marağı da göstərir. Mağazaya baş çəkəndə səhər saatları olmasına baxmayaraq, xeyli sayda müştəri var idi.

Satıcı Davud Əliyev bildirdi ki, burada muxtar respublikamızda fəaliyyət göstərən 26 istehsal müəssisəsinə aid 592 çeşiddə məhsul satışa çıxarılıb.

Rəf və soyuducularda səliqə ilə düzülmüş nəfis şirniyyat və vafli məmulatları, ekoloji təmiz Naxçıvan duzu, meyvə şirələri, ət və süd məhsulları, min bir dərdin dərmanı olan mineral sular və dərman otları, hədiyyəlik meyvə quruları və spirtli içkilər, makaron, düyü, noxud, mərcimək çeşidləri kimi istehlakımızda mühüm paya malik olan yerli məhsullar diqqəti cəlb edir. Meyvə-tərəvəz bölümündə isə payızın bu bolluq dövründə təkcə Naxçıvanda deyil, onun hüdudlarından kənarda da çox axtarılan tam orqanik təzə meyvə-tərəvəzlər müştərilərə təklif olunur. Mağazada "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" loqosu ilə satışa çıxarılan məhsullara da xüsusi yer verilib.

Qeyd edək ki, "Naxçıvan məhsulları" adlı satış mağazaları Bakı və Gəncə şəhərlərində də fəaliyyət göstərməklə özünə xeyli sayda müştəri toplayıb.

**Əli CABBAROV**

## Sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satış təşkil edilib

*Sentyabrın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının Tədbirlər Planına əsasən Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların rəsm və əl işlərinin sərgi-satışı təşkil olunub.*





Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsi müdirinin müavini Sahir Rüstəmov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə muxtar respublikamızda bütün sahələrdə inkişafa nail olunub. Sağlamlıq imkanları məhdud şəxslərin və qadınların ictimai-mədəni həyatda iştirakı, onların istedadlarının üzə çıxarılması və məşğulluqlarının təmin edilməsi istiqamətində də ardıcıl tədbirlər görülür. Qadınlar və məhdud fiziki imkanlı şəxslər peşə məktəblərinə cəlb olunur, xalçaçı, dərzi, toxuculuq kimi peşə kurslarında onlara el sənəti nümunələrini hazırlamaq öyrədilir. Bu da onların özünüməşğulluğunu təmin etməklə yanaşı, həm də xalqımızın milli dəyərlərinin və adət-ənənələrinin qorunub yaşadılmasında mühüm əhəmiyyət daşıyır.

Sahir Rüstəmov məhdud fiziki imkanlılar və istedadlı qadınların rəsm və əl işlərindən ibarət növbəti sərgi-satışın təşkil olunmasını bu kateqoriyadan olan şəxslərə dövlət qayğısının daha bir ifadəsi olduğunu bildirib, sərgi-satışın iştirakçılarına uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova tədbirdə çıxış edərək bildirib ki, muxtar respublikada bütün sahələrdə olduğu kimi, qadınların məşğulluğunun təmin olunması da diqqətdə saxlanılır, onların fəaliyyəti üçün hər cür şərait yaradılır. Muxtar respublikada xüsusi istedadları ilə seçilən, rəssamlıq, toxuculuq, el sənəti nümunələrini yaşatmağı özünə fəaliyyət sahəsi seçən və asudə vaxtını bu işlərə sərf edən qadınların sayı artır, yeni yaradıcılıq nümunələri yaradılır.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov çıxışında qeyd edib ki, bu gün muxtar respublikanın bütün sakinləri kimi, sağlamlıq imkanları məhdud şəxslər də yüksək dövlət qayğısı ilə əhatə olunublar. Naxçıvan Muxtar Respublikasında həyata keçirilən dövlət qadın siyasəti qadınlarımızı cəmiyyətin fəal üzvünə çevirib, onların ictimai həyatda iştirakını təmin edib. Həyata keçirilən bu siyasətin tərkib hissəsi kimi istedadlı qadınların fəaliyyətlərinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir.

Sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar.

Qeyd edək ki, 10 gün davam edəcək sərgi-satışa, ümumilikdə, 188 müəllifin 2427 rəsm əsəri və əl işi çıxarılmışdır.

**“Şərq qapısı”**

## Naxçıvanda mətbuat xidmətlərinin fəaliyyətinin təşkili ilə bağlı tədbir keçirilmişdir

*Sentyabrın 28-də Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətlərinin fəaliyyətinin təşkili və qarşıda duran vəzifələrlə bağlı tədbir keçirilmişdir.*



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin məsləhətçisi Təhminə Babayeva muxtar respublikanın mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətlərinin fəaliyyəti barədə çıxış edərək demişdir ki, bu ilin iyun, iyul, avqust və sentyabr aylarında mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətlərinin “Şərq qapısı”nda, şəhər və rayon qəzetlərində, ümumilikdə, 913 materialı dərc olunmuş, teleradiolarda 809 veriliş və xəbər süjeti hazırlanmışdır. Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən bütün mərkəzi icra hakimiyyəti orqanlarının internet saytlarında mətbuat xidməti bölməsi yaradılmışdır. Yaradılan mətbuat xidmətləri bölmələrində təşkilatların fəaliyyəti ilə bağlı 759 xəbər, hesabat və digər materiallar yerləşdirilmişdir. Lakin Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin və “Naxçıvanqaz” İstehsalat Birliyinin internet saytlarında “Mətbuat xidməti” bölməsi yaradılsa da, aktiv fəaliyyət göstərmir. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Ədliyyə Nazirliyinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Gənclər və İdman Nazirliyinin, Maliyyə Nazirliyinin, İnsan Hüquqları üzrə Müvəkkil Aparatının, Dövlət Gömrük Komitəsinin, Dövlət Statistika Komitəsinin, Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın və Dövlət Miqrasiya Xidmətinin rəsmi internet saytlarında təşkilatların fəaliyyəti ilə yanaşı, Naxçıvan Muxtar Respublikasının müasir inkişafını, tarixi-mədəni irsini və turizm potensialını əks etdirən fotoşəkillər və videolar da yerləşdirilərək fəal təbliğat işi aparılır.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Səhiyyə, Mədəniyyət, İqtisadiyyat, Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, Dövlət Gömrük Komitəsinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin, Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidmətlərinin əməkdaşları səmərəli və aktiv fəaliyyətləri ilə nümunə göstərilə bilərlər. Adıçəkilən qurumların mətbuat xidmətləri tərəfindən “Şərq qapısı”, şəhər və rayon qəzetlərinə, eləcə də televiziya və radiolara təqdim edilən materiallar, ümumilikdə, mətbuat xidmətləri tərəfindən verilən materialların 60 faizindən çoxunu təşkil edir. Aparılan təhlillər nəticəsində məlum olmuşdur ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin, Mərkəzi Seçki Komissiyasının, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin və Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidmətləri hələ də işini günün tələbləri səviyyəsində qura bilmirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədr müavini Ümid Qurbanov çıxış edərək demişdir ki, ötən dövrdə verilən tapşırıqlara uyğun olaraq komissiya tərəfindən mətbuat xidmətləri əməkdaşlarının ödənişsiz attestasiyası və vakant mətbuat xidməti yerlərinə müsabiqə keçirilmişdir. Attestasiyanın test-imtahan mərhələsində 16 mətbuat xidməti əməkdaşı iştirak etmiş, onlardan 11-i esse mərhələsində iştirak etmək hüququ qazanmış və bu mərhələni keçmişdir. 8 vakant mətbuat xidməti yerinin tutulması üçün keçirilən müsabiqənin test-imtahan mərhələsində 20 namizəd iştirak etmiş və onlardan 5-i müvafiq keçid balını toplamışdır. Həmin namizədlərdən 4-ü esse mərhələsində də uğur qazanaraq Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində, Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyində, İnsan Hüquqları üzrə Müvəkkil Aparatında (Ombudsman) və Dövlət Energetika Xidmətində mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçi vəzifələrinə təyin olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü Sara Əzimova və Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov tədbirdə çıxış etmişlər. Qeyd olunmuşdur ki, muxtar respublikada fəaliyyət göstərən teleradio və qəzetlərdə əməkdaşlıq üçün lazımi şərait yaradılıb. Ötən 4 ayda mərkəzi icra hakimiyyəti orqanları ilə kütləvi informasiya vasitələri arasında informasiya-məlumatlandırma işinin təşkili təhlil olunaraq monitorinq aparılmış, mətbuat xidmətləri tərəfindən təqdim edilən materialların keyfiyyəti diqqətdə saxlanmışdır. Çıxış edənlər yol verilən nöqsanları diqqətə çatdırmış və səmərəli əməkdaşlıq imkanları barədə təkliflər vermişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Ülvi Hüseynli çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin mətbuat xidmətlərinin fəaliyyətinin təşkili sahəsində müəyyənləşdirdiyi vəzifələrin icrası daim diqqət mərkəzində saxlanılır. Verilən tapşırıqlara uyğun olaraq bu ilin may ayında mətbuat xidmətlərinin fəaliyyəti ilə bağlı müşavirə keçirilmiş və bu sahədə mühüm istiqamətlər müəyyənləşdirilmişdir. Müşavirədən ötən dövrdə tapşırıqların icrası diqqətdə saxlanılmış və aidiyyəti üzrə tədbirlər görülmüşdür. Lakin hələ də bir sıra mətbuat xidmətləri işini günün tələbləri səviyyəsində qura bilmir, nöqsanlara yol verilir, informasiya siyasəti düzgün aparılmır.

Qeyd olunmuşdur ki, internet saytlarındakı “Mətbuat xidməti” bölməsi daim yenilənməli, yeni məlumatlarla zənginləşdirilməlidir. Təşkilatların fəaliyyəti ilə bağlı aylıq materialların hazırlanması və kütləvi informasiya vasitələrinə təqdim olunması davam etdirilməli, bu zaman keyfiyyətə xüsusi diqqət yetirilməlidir. Müşavirədən ötən dövrdəki fəaliyyət təhlil olunarkən aydın olmuşdur ki, mətbuat xidmətləri tərəfindən teleradio və qəzetlərə, əsasən, xəbər mətnləri göndərilmiş, təşkilatların fəaliyyəti ilə bağlı məqalələrə az yer verilmişdir. Mətbuat xidmətləri analitik materialların hazırlanmasını da diqqətdə saxlamalı, qəzetlərdə məqalələri dərc olunmalı, teleradio verilişləri hazırlanmalıdır. Maarifləndirici verilişlərin sadə dildə və başadüşülən formada təqdimatı vacib məsələdir.

Dövlət proqramlarının əhəmiyyəti, eləcə də icra vəziyyəti haqqında materialların hazırlanması və ictimaiyyətə təqdim olunması işi zəif qurulub. Mətbuat xidmətləri bu sahədə üzərlərinə düşən vəzifələrə səthi yanaşırlar. Növbəti aylardan etibarən aid mətbuat xidmətləri bu işdə aktivliyi artırmalıdırlar. Naxçıvan Muxtar Respublikasının müasir inkişafı, tarixi-mədəni irsi və turizm potensialı haqqında internet saytlarında fəal təbliğat işi aparılmalıdır. Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası və Naxçıvan Mətbuat Şurası mətbuat orqanları üçün rüblük monitorinqlər hazırlayarkən mətbuat xidmətlərinin fəaliyyətini də təhlil etməli, muxtar respublikanın kütləvi informasiya vasitələri ilə dövlət orqanlarının mətbuat xidmətlərinin qarşılıqlı əməkdaşlığına dair hesabatlar hazırlanmalıdır.

Tədbirdə qeyd olunmuşdur ki, bundan sonra da mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətlərinin fəaliyyətinin gücləndirilməsi və işin kütləvi informasiya vasitələri ilə qarşılıqlı şəkildə qurulması diqqətdə saxlanılacaq, qarşıya qoyulan vəzifələrin icrasına tam nail olunacaqdır.

**“Şərq qapısı”**

*1 oktyabr Beynəlxalq Ahıllar Günüdür*

## Ahıl vətəndaşlar qayğı ilə əhatə olunub

***Birləşmiş Millətlər Təşkilatı Baş Məclisi 1992-ci ildə ahılların müdafiəsi ilə bağlı qətnamə qəbul edib. Bu qətnamənin prinsiplərinə uyğun olaraq hər il oktyabrın 1-i Beynəlxalq Ahıllar Günü kimi qeyd olunur.***

Xalqımızın ümummilli lideri Heydər Əliyev ahıl insanlara, onların problemlərinə hər zaman böyük həssaslıqla yanaşmış, ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə bir sıra normativ-hüquqi sənədlər qəbul edilmişdir. Bu gün ölkəmizdə ahıl insanlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunub və bu qayğı ildən-ilə artır. Ahıl vətəndaşların sosial vəziyyətlərinin yaxşılaşdırılması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət mərkəzindədir. Onlara müxtəlif növ xidmətlərin göstərilməsi, maddi-məişət şəraitinin yaxşılaşdırılması, cəmiyyətə inteqrasiyası sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Pensiya və müavinətlərin məbləğinin mütəmadi olaraq artırılması ahıllara göstərilən davamlı dövlət qayğısının ifadəsidir.

Muxtar respublikada sosial-iqtisadi inkişafın təmin edilməsi ahıl vətəndaşlara göstərilən xidmətlərin həcminin ilbəil artmasına, yaşayış səviyyəsinin yüksəlməsinə hərtərəfli şərait yaradıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 30 may tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı” onların sosial müdafiəsi ilə bağlı həyata keçirilən tədbirlərin davamlılığını təmin edib.

Muxtar respublikada 1941-1945-ci illər müharibəsi veteranlarına xüsusi diqqət və qayğı göstərilir. Müharibə iştirakçıları minik maşını ilə təmin edilir, onların yubileyləri qeyd olunur, sosial müdafiələrini gücləndirmək məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

Ahıllar Evi sakinlərinin rahat yaşaması üçün hər cür məişət şəraiti yaradılıb. Sakinlər mütəmadi olaraq tibbi müayinədən keçirilir, müalicələrinə köməklik göstərilir, əlamətdar günlərdə sakinlərlə görüşlər təşkil olunur, onlara sovqatlar təqdim edilir.

Ahıl insanların sağlamlıqlarının qorunmasına, tibbi reabilitasiyasına xüsusi önəm verilir. Belə ki, onların protez-ortopedik və müxtəlif reabilitasiya vasitələri ilə təmin olunmaları üçün səyyar xidmətlər göstərilir, respublikanın sanatoriya və pansionatlarına göndərişlər verilir. Ahıllar arasında yaradıcılıq müsabiqələri, əl işlərindən ibarət sərgilər də təşkil olunur. Ahılların əl işlərinin satışının təşkil edilməsi, onların məşğulluğunu təmin etməklə maddi təminatlarının yaxşılaşmasına xidmət edir.

Muxtar respublikada ahılların yubiley yaşları, uzunömürlü ailələrin qızıl və brilyant toyları qeyd olunur. Sosial xidmət göstərilən tənha ahılların muxtar respublikanın tarixi və görməli yerlərinə gəzintilərinin, həftənin şənbə günləri onların yaşayış yerlərində iməciliklərin keçirilməsi ahıllara göstərilən dövlət qayğısının təzahürüdür. Bu tədbirlərin davamı olaraq Beynəlxalq Ahıllar Günü münasibətilə muxtar respublikada ahılların iştirakı ilə silsilə tədbirlər həyata keçirilir. Belə ki, sosial xidmət göstərilən tənha ahıllardan bir qisminin “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksinə ziyarəti, muxtar respublikanın ən uzunömürlü sakini ilə, həmçinin Ahıllar Evində, Naxçıvan şəhərində və rayonlarda sosial xidmət göstərilən tənha ahıllarla görüş təşkil edilib, ahıllara bayram sovqatı təqdim olunub.

Yaşlı nəslə qayğı həm də milli mənəviyyatımızın tərkib hissəsidir. Buna görə də ölkəmizdə ahıllara həmişə xüsusi diqqət göstərilir, onların sosial müdafiəsi gücləndirilir. Ahıl vətəndaşların cəmiyyətə inteqrasiyası istiqamətində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası
Əmək və Əhalinin Sosial Müdafiəsi
Nazirliyinin mətbuat xidməti***

# GÖYGÖL





*Bir yanda qar yağıb çən-duman çöküb,*
*Bir yanda bənövşə boynunu büküb,*
*Bir yanda nərgizlər ləçəyin töküb,*
*Fəsil tanımaqda naşıdı Göygöl.*

*Bura fəsillərin birlik ocağı,*
*Neçə şəlalənin dayanacağı,*
*O, bir möcüzə yox, cənnət bucağı,*
*Yurdumun yayıdı, qışıdı Göygöl.*

*Səyyah, Qapıcığın zirvəsinə qalx,*
*Orda tez açılır hər yerdən sabah.*
*Dumandan örpəyi sürüşəndə bax,*
*Sanarsan üzüyün qaşıdı Göygöl.*

*Zərif qönçə ikən solanı görən,*
*Gerçəyi öldürən, yalanı görən,*
*Neçə-neçə haqsız talanı görən*
*Dağların gözünün yaşıdır Göygöl.*

*Dədə Qorqud kimi ozanlar görmüş,*
*Teymurtək növraqlar pozanlar görmüş,*
*Neçə Koroğlular, Qazanlar görmüş*
*Bu şiş qayaların yaşıdı Göygöl.*

**Əbülfəz MUXTAROĞLU**



Foto: Əli XUDİYEV

Yurdumuzun nemətləri

## Ətirli və faydalı bitki çayları



Bu yaxınlarda yazı hazırlamaq üçün yolumu Şahbuz rayonunun Aşağı Qışlaq kəndindən salmışdım. Evlərindən müsahibimin kənddən xeyli aralıda – "Post" deyilən ərazidə olduğunu söyləyəndə üz tutdum həmin yerə. Burada ocağın üstündə gördüyüm xısdan qaralmış və ahəstə-ahəstə qaynayan çaydan Əskərxan əmi ilə maraqlı bir mövzu barədə söhbətin yaranmasına səbəb oldu. Əllərini yuyub: "Qızım, qoy çayı dəmləyim, söhbət edək", – deyərək ocağa yaxınlaşan əminin əlindəki nəlbəkinin içində qırmızı rəngdə, gilənara oxşar bitki var idi. Həmin bitkini nəlbəkidə su ilə yaxaladıqdan sonra çaydanın içərisinə atdı. Mənim marağımı hiss edərək, mərmərikdir, min dərdin dərmanıdır, çayı çox xeyirlidir, – deyib əyləşdi. Bir azdan stəkanlarda qıpqırmızı görünüşlü və xüsusi ətirli mərmərikli çay süfrəsi ətrafında söhbətimiz başlandı. Əskərxan əmi: – Mən çöldə işləməyə gələndə bura qara çay gətirdiyimi xatırlamıram. Bu kənddə mənim kimi çoxları var ki, qara çayı ancaq evdə içər, sahəyə işə çıxanda isə çaydanını ocağın üstünə qoyub, ətrafdakı güldən-çiçəkdən, giləmeyvələrdən toplayıb çayını dəmləyər. Elə ki yaz gəldi, hər həftə bir bitkinin yetişməsi, dərilməsi dövrü olur. Bir-birinin ardınca, bax bu qara çaydanımda bitki çayıdır ki, dəmləyirəm. Bilirsən, qızım, bu yerin ki adamları var ha, onlar gərək hər zaman bu təbii nemətlərlə qidalansınlar. Ona görə ki, biz bu təbiətə, iqlimə uyğunlaşmışıq. Sağlamlığımız, gücümüz-qüvvətimiz də bu bitkilərlə bağlıdır.

Müsahibim, yəqin ki, marağımı hiss etmişdi. Birdən ayağa qalxdı və söhbət edə-edə oturduğumuz yerdən xeyli aşağı – çay yamaclarına doğru endik. Qırmızı meyvəli bir kolun yanında dayananda: – "Budur, mərmərik, dağ yamaclarında, bir də burada bitir", – dedi. Yurdumuzun gözəl təbiətinin yetirib-bitirdiyi nadir nemətlərdən olan mərməriyin xırda kol bitkisi olduğunu gördüm. Budaqlara bitişik, sanki insan əli ilə bir-bir düzülmüş meyvələri kiçik gilənarı xatırladırdı. Onun dadına da baxdım, turşməzə idi. Əskərxan əmi dedi ki, o, susuzluğu yatıran bitkidir. Həm də böyrək yollarının iltihabı və duz qırıntılarından yaranan ağrılarda şəfalı bitki kimi istifadə edilir, qan təzyiqini nizamlayır.

Yurdumuzun yetirib-bitirdiyi min adda, min bir dadda yabanı bitkilər arasında qida kimi qəbul edilənləri ilə yanaşı, həm də dəmlənərək çay kimi istifadə edilənləri saysız-hesabsızdır. Kəklikotu, çobanyastığı, baldırğan, solmazçiçək, qantəpər, qaraqınıq, zirə, damotu, yarpız, dazotu, qarapodium, mərmərik, həmərsin, ayıdöşəyi, səhləb, dağ nanəsi, ögey ana, ağ və sarı boymadərən, gicitkən, yemlik, boyaqotu, gülxətmi, qatırquyruğu, zirinc, andız, qırxbuğum, adaçayı və adını çəkmədiyimiz onlarla qiymətli bitkilərimiz min bir dərdin dərmanıdır.

Çay xalqımızın ta qədimdən ən çox sevdiyi içki növüdür. Onun insan orqanizmi üçün özünəməxsus faydaları vardır. Gündəlik olaraq qara çayla yanaşı, bitki çaylarının da içilməsi çox vacibdir. İndi həkim-dietoloqlar tərəfindən içilməsi məsləhət görülən bitki çaylarını bütün ticarət mərkəzlərindən, əczaxanalardan almaq mümkündür. Bizim güllü-çiçəkli dağlarımıza-dərələrimizə isə Ulu Yaradan həmin yaşıl çayları ərsəyə gətirən bitkilərin əksəriyyətini bəxş edib. Həm də bol günəş, təmiz hava və saf bulaqlarımızın suyu ilə qidalanan bitkiləri.

Şahbuz rayonunun Biçənək kəndində yaşayan 82 yaşlı Qeysun nənə yurdumuzun möcüzəli bitkiləri ilə bağlı deyir: – Mən bu yerlərin yetirdiyi bitkilərdən hazırlanan yeməkləri, xüsusilə də çayları çox sevirəm. Cavanlığım yaz açılan vədədən düz qar yerə düşənədək Batabat, Biçənək meşələrində keçib. Bitkiləri qonşu qadınlarla birlikdə toplamışıq, qurudub qışa tədarük etmişik. Qapımızdaca satmışıq da. Önlük tikərdim özümə o illər, qarşısına saldığım ciblə hamının önlüyündən fərqli olardı. O cib bilirsiz nədən ötrü idi? Çayı dəmlənən bitkilər üçün. Qazayağı, şep, çaşır, sobu, bolu, baldırğana gedəndə həmin bitkilərin hansının vədəsi olardı, önlüyümün cibini doldurmamış qayıtmazdım. Onları təmizləyib kölgədə elə qurudardım ki, qışda əl vurmasaydın, deyərdin, bəlkə, bu saat dərilib. İlboyu da çayını dəmləyib içmişik, həm də necə? Çöldə həmin bitkiləri hansı ardıcıllıqla yığmışamsa, o ardıcıllıqla da dəmləyərdim. İndi ta çölə gedə bilmirəm. Oğlum, nəvələrim mənim hansı bitkini haradan topladığımı yaxşı bilirlər. Onlar yığıb gətirirlər, amma qurudulmasına özüm nəzarət edirəm.

Qeysun nənə onu da deyir ki, bitki çayları insanın qocalmasını gecikdirir, qan təzyiqini sabit saxlayır, soyuqdəyməni bədəndən asanlıqla çıxarır, iltihabı təmizləyir, piylənmənin qarşısını alır, ümumiyyətlə, elə bir xəstəlik yoxdur ki, ona çarə olan bitki tapılmasın.

Şahbuz şəhərində yaşayan Gülsüm xanım deyir ki, mətbəximdə daim iki çaynik olur. Biri qara, digəri yaşıl çay dəmləmək üçün. Gün ərzində onların hər birinin öz dəmlənmə saatları var. Bitki çaylarını hər gün eyni vaxtda içəndə faydası çox olur. Gülsüm xanım maraqlı bir faktı da dedi ki, bir dəfə yoldaşım xarici dövlətlərdən birinə getmişdi, bitki çayı xoşladığım üçün mənə həmin çaydan hədiyyə almışdı. Adını oxuya bilməsəm də, üstündəki şəkildən çobanyastığı olduğunu bildim. Bitkidən bir qədər stəkana atıb, dəmlədim. Nə rəngi çıxdı, nə də ətri.

Vaxtilə bu bitkiləri kəndlərimizdə yaşayan insanlar böyük zəhmət sərf edərək toplayıb ucuz qiymətə satmalı olurdular. Bu gün bütün sahələrin qayğı ilə əhatə olunduğu muxtar respublikamızda bu zəhmətkeş insanlar da diqqətdən kənarda qalmayıblar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı tədbirlər" haqqında 2017-ci il 22 noyabr tarixli Sərəncamı ailə təsərrüfatını qurmaq, onu genişləndirmək, istehsal etdiyi məhsulları, topladığı mədəni və yabanı bitkiləri sərbəst şəkildə bazarlarda realizə etmək istəyən insanların zəhmətlərinin yüksək səviyyədə qiymətləndirilməsinin, onlara hər cür şəraitin yaradılmasının bariz nümunəsi oldu.

Bu bitkilər Şahbuz rayonunda fəaliyyət göstərən "Farma Şah" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən də müvafiq qiymətə qəbul edilərək istehsal olunur. İndi muxtar respublikamızda, hətta Naxçıvandan kənarda belə, "Farma Şah"ın məhsullarını almaq, heç bir kimyəvi tərkibi olmayan, insan sağlamlığı üçün qiymətli hesab edilən yabanı bitkilərdən ailəliklə istifadə etmək olar. Unutmamalı olduğumuz vacib məsələlərdən biri də odur ki, yurdumuzda yabanı şəkildə bitən bitkiləri özümüz yığıb istifadə edir, bəzən də çox ucuz qiymətə alırıq. Ancaq onların bir ovucu xarici dövlətlərdə yüz avrodan baha satılır.

*Sonda onu da deyək ki, festivallar məkanı olan muxtar respublikamızda gələcəkdə çay festivalı da təşkil olunarsa, sözsüz ki, yurdumuzun bənzərsiz, sayı-hesabı olmayan şəfalı bitkilərindən dəmlənən çaylarımız bu festivalı dillər əzbərinə çevirər.*

**Mətanət MƏMMƏDOVA**


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 712